E-1492

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər – N.F.Nəsibova, E.Ş.Qafarov,

etiraz verən iddiaçı-“Guhring KG” şirkəti /*ünvan* – Herderstrasse 50-54, 72458 Albstadt, Germany (Almaniya) nümayədəsi patent müvəkkili V.F.Əfəndiyevin iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

24.11.2017 il tarixdə “Guhring KG” (DE) şirkəti "AVIATION Tools Services" adlı əmtəə nişanının *07, 37, 40 və 42-ci* siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 09.08.2017 il tarixli qərarına qarşı iddiaçının nümayədəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, aşağıda göstərilmiş beynəlxalq əmtəə nişanı Əmtəə Nişanlarının Beynəlxalq Qeydiyyatı Haqqında Madrid Protokolu üzrə Azərbaycanda qeydiyyata alınması üçün təqdim edilmişdir:

- Nişanının adı: AVIATION Tools Services;
- Nişanın qeydiyyat tarixi: 22.10.2015;
- Nişanın qeydiyyat nömrəsi: 1283505;
- Nişanın iddia edildiyi sinif və əhatə etdiyi əmtəələr və xidmətlər;

07 - Tools being parts of machines; cutting tools (mechanically operated tools); mechanical tools for machine tools; chucks being machine parts; drill chucks (parts of machines); tool holders being parts of machine tools; pre-setting tools for setting and adjusting tools, included in this class; modular couplings for machine tools.

37 - Repair, maintenance and servicing of tools, rental of tools.

40 - Treatment of materials, namely grinding and coating of tools; contract manufacturing services in the field of tool construction.

42 - Engineering design; design of instruments; engineering in the field of tool construction; engineering testing; technical project planning services; providing technical advice relating to tool construction; computer software design, for others

- Nişanın sahibinin adı: “Guhring KG”;
- Nişan sahibinin ünvanı: Herderstrasse 50-54, 72458 Albstadt, Germany (Almaniya);
- Nişanın qüvvədə olma müddətinin bitməsi tarixi: 22.10.2025;

“Patent və Əmtəə Nişanları Mərkəzi” tərəfindən qəbul edilmiş 09.08.2017-ci il tarixli qərar əsasında Qeydiyyata təqdim edilmiş 1283505 No-li nişanın ilkin mərhələdə qeydiyyatından imtina edilmişdir. Göstərilən qərarda “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra “Qanun”) 5-ci Maddəsinin “b” və “c” bəndlərinə və “Sənaye Mülkiyyətinin Mühafizəsi Haqqında” Paris Konvensiyasının 6 quinquies Maddəsinin “B” bəndinə istinad edilmişdir.  Qanunun və Konvensiyanın göstərilən müvafiq Maddələrində və bəndlərində göstərilir ki, fərqləndirici elementlərə malik olmayan və əmtəələrin məqsədini göstərən nişanlar qeydiyyata alınır.  İddia edilən 1283505 No-li beynəlxalq əmtəə nişanının sahibi “Guhring KG” ekspertiza qərarını aşağıda göstərilən səbəblərdən qeyri-obyektiv və qeyri-qanuni hesab edir:

İddia edilən nişanının 07, 37, 40 və 42-ci siniflərdə əhatə etdiyi əmtəələrin və xidmətlərin siyahısı ilə birbaşa hər hansı bir əlaqəsi yoxdur.  Nişan yalnız sözlərdən ibarət deyil, nişanın tərkibində fərqləndirici təsvir mövcuddur. Lakin, Ekspertiza bunu nəzərdən qaçırıb.  Nişan Avropa İttifaqında əmtəə nişanı qismində bu İttifaqa üzv olan bütün dövlətlərin ərazisində 09.10.2015-ci il tarixində 014091755 nömrə altında qeydiyyata alınıb (qoşulur).  Bundan əlavə nişan “Əmtəə Nişanlarının Beynəlxalq Qeydiyyatı Haqqında Madrid Sazişinə Protokol üzrə” aşağıda sadalanmış ölkələrdə əmtəə nişanı qismində qeydiyyata alınıb:

Avstraliya, Yeni Zelamdiya, İsveçrə, Ukrayna, Yaponiya, Serbiya, Qırğızıstan, Rusiya Federasiyası. Bir çox ölkələrdə bu nişan üzərində ekspertiza mərhələsi hələ başa çatmayıb.  Nişan sahibi “Guhring KG” rotorlu kəsici dəzgahlar sahəsində fəaliyyət göstərir, belə dəzgahları layihələşdirir, istehsal edir və satışa çıxarır. “Guhring KG” kompaniyası belə bir dəqiq cihazların istehsalı sahəsində dünyanın aparıcı kompaniyalarından biridir. Kompaniya dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. İddia edilən nişan,  “Guhring KG” kompaniyasının törəmə kompaniyası olan Polşa kompaniyası tərəfindən Polşada, Şərqi Avropa ölkələrində və Rusiya Federasiyasında istifadə edilir. İddia edilən nişanın əmtəə nişanı qismində ciddi və mükəmməl ekspertiza sisteminə malik olan Avropa İttifaqı ölkələrində və Avstraliyada, Yaponiyada, Rusiya Federasiyasında qeydiyyata alınması ona dəlalət edir ki, bu nişan fərqlənmə qabiliyyətinə malik olan bir nişandır və belə bir faktı təəssüf ki, ekspertiza nəzərdən qaçırmışdır.  İddia edilən nişanın yuxarıda sadalanmış ölkələrdə qeydiyyata alınması faktı onu sübut edir ki, bu nişan fərqlənmə qabiliyyətinə malikdir və  Azərbaycan Respublikasında da qeydiyyata alına bilər. Yuxarıda verilmiş məlumatları və gətirilmiş arqumentləri nəzərə almaqla “Patent və Əmtəə Nişanları Mərkəzinin” 09.08.2017-ci il tarixli qərarının ləğv edilməsi, iddia edilən 1283506 No-li beynəlxalq əmtəə nişanına 07, 37, 40 və 42-ci siniflərdə əhatə etdiyi əmtəələr üzrə hüquqi mühafizə verilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Daha sonra iddiaçının patent müvəkkili V.F.Əfəndiyev etiraz ərizəsinə əlavə təqdim edərək bildirmişdir ki, Azərbaycan Respublikasının üzv olduğu “Sənaye mülkiyyətinin mühafizəsi haqqında Paris Konversiyası”-nın 6[quinquies] Maddəsinin A-(1) bəndində qeyd edilir ki, “Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu Maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir”. 1283505 No-li “AVIATION” beynəlxalq əmtəə nişanı olduğu kimi Avropa Birliyi ölkələrində, yəni bu nişanın mənşə ölkəsi olan Almaniyada eyni iddiaçının, yəni Guhring KG-nin adına qeydiyyata alınıb, ekspertiza tərəfindən bu hal nəzərə alınmalı idi. Belə ki, Paris Konversiyasının 6 quinquies Maddəsinin A-(1) bəndinə əsasən, 1283505 No-li “AVIATION” beynəlxalq əmtəə nişanı Azərbaycan Respublikasında qeydiyyata alına bilər.

Apellyasiya şurasının iclasında iştirak edərək iddiaçının nümayəndəsi V.F.Əfəndiyev qeyd etdi ki, Madrid Sistemi üzrə Azərbaycanda fərqli siniflərdə aşağıda sadalanmış beynəlxalq əmtəə nişanları qeydiyyata alınmış və hal-hazırda qüvvədədir:

IR No 990340 “DC AVIATION”
IR No 963000 “DC AVIATION”
IR No 935657 “Exclusive AVIATION”
IR No Ekspertiza mərhələsindədir: “Turkiş AVIATION ACADEMY”.

Onu da qeyd etmişdir ki, IR No 963000 “DC AVIATION” beynəlxalq əmtəə nişanı iddia edilən IR No1283505 “AVIATION Tools Services” beynəlxalq əmtəə nişanının 37-ci sinifdə əhatə etdiyi əmtəələr üzrə qeydiyyata alınmışdır. Yuxarıda sadalanmış “AVIATION” tərkibli beynəlxalq əmtəə nişanlarının öncə Azərbaycanda qeydiyyata alınması və hal-hazırda qüvvədə olması iddia edilən IR No1283505 “AVIATION Tools Services” beynəlxalq əmtəə nişanının Azərbaycanda qeydiyyata alınması üçün əsaslı hüquqi zəmin yaradır.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili V.F.Əfəndiyevin çıxışını dinləyib, hesab edir ki, etiraz qismən təmin olunmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, “Guhring KG” şirkəti tərəfindən “ ” (1283505) adlı əmtəə nişanı 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə 22.10.2015-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 06.10.2016-cı il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2016/39 Gaz).

Ekspertiza “ ” (1283505) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarında “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci Maddəsinin “b” və “c” bəndlərinə və “Sənaye Mülkiyyətinin Mühafizəsi Haqqında” Paris Konvensiyasının 6 quinquies Maddəsinin “B” bəndinə istinad etmişdir.

Apellyasiya şurası hesab edir ki, “ ” əmtəə nişanının tərkibində “Tools Services” söz birləşməsi, “Tools” və “Services” sözləri 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə mühafizə olunan elementlər kimi sayıla bilməz.

Apellyasiya şurasına təqdim edilən sənədlərdən görünür ki, " " əmtəə nişanı 09.10.2015-ci il tarixində 014091755 No altında Avropa birliyində (OHIM) qeydiyyata alınmışdır. “ ” əmtəə nişanı Avropa Birliyinə daxil olan ölkələrlə yanaşı, həmçinin mənşə ölkəsi olan Almaniyada əmtəə nişanı qismində mühafizə edilir. “Sənaye Mülkiyyətinin mühafizəsi haqqında” Paris Konvensiyasının 6-quinquies maddəsinin “A” bəndində göstərilmişdir ki, “Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış

hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu Maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir”.

“AVIATION” sözünün azərbaycan dilində “aviasiya” (hava flotu), “hava nəqliyyatı”, “uçucu aparatlar vasitəsilə havada uçma işinin nəzəriyyə və praktikası” kimi mənaları mövcuddur. Apellyasiya şurası göstərilənləri nəzərə alaraq hesab edir ki, “ ” əmtəə nişanının tərkibində olan “AVIATION” sözü və təsviri hissəsi 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə mühafizə olunan element kimi sayıla bilər.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini, “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın 6-quinquies maddəsinin “A” bəndini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “ ” adlı əmtəə nişanının 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə 1283505 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 09.08.2017 il il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən verilmiş ərizə əsaslı hesab olunsun və qismən təmin edilsin.

2. “ ” adlı əmtəə nişanının 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə 1283505 saylı beynəlxalq qeydiyyata alınmasına dair ekspertizanın 09.08.2017 il il tarixli rədd qərarı etibarsız sayılsın.

3. “ ” adlı əmtəə nişanının (1283505 saylı beynəlxalq qeydiyyat) tərkibində “Tools” və “Services” sözləri mühafizə olunmayan elementləri kimi sayılsın.

4. “ ” adlı əmtəə nişanının 07, 37, 40 və 42-ci siniflərin əmtəələri və xidmətləri üzrə 1283505 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası üzrə qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən müəyyən edilmiş qaydada Beynəlxalq büroya məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov